**Abşeron rayonu, Xırdalan şəhəri, 21-ci məhəllədə yerləşən yaşayış binası** – Xırdalan şəhərinin mərkəzində, Bakı şəhərinə 10 dəqiqəlik, Sumqayıt şəhərinə isə 20 dəqiqəlik məsafədə yerləşən, rahat mənzillərdən ibarət kompleksdir.

***Kompleksin tikinti parametrləri***

- Kompleks 16 mərtəbəli 2 binadan ibarətdir.
- Binalarda yerləşən mənzillərin otaqlarının sayı 1-3 aralığındadır.
- Mənzillər tam təmirlidir.
- Bütün kommunal xidmətlərlə (qaz, su, işıq) təmin olunub, sayğaclar quraşdırılıb.
- Mənzillər üzərində mülkiyyət hüququ dövlət qeydiyyatına alınıb.

***Kompleksin infrastruktur cəhətdən üstünlükləri***

Yaşayış binası çox əlverişli ərazidə yerləşir. Belə ki, həmin əraziyə yaxın ümumtəhsil məktəbi, uşaq bağçaları, parklar, xəstəxana, kafelər, müxtəlif mağazalar, bank filialları və şöbələri yerləşir.

***Kompleksin nəqliyyat imkanları***

Avtobus dayanacağına qədər olan məsafə 50 metrdir. Yaxınlıqda bir neçə avtobus marşrutu fəaliyyət göstərir, bu da şəhərətrafı ərazilərə tez bir zamanda çatmaq imkanı yaradır.

***Kompleksdə nəzərdə tutulan digər xüsusiyyətlər***

Kompleksin qarşısında ona gözəllik qatacaq geniş, müasir parkın salınması nəzərdə tutulur. Ağac və yaşıllıqlarla sakinlərin ruhunu oxşayacaq parkda uşaqların istirahəti üçün oyun meydançası və attraksion quraşdırılacaq.

***Kompleksə dair digər məlumatlar***

Kompleksdə mənzillərin sahəsi və aylıq ödənişləri:
1 otaqlı 69.40 kv.m – 457.90 manatdan;
2 otaqlı 89.80 kv.m – 592.50 manatdan;
3 otaqlı 126.80 kv.m – 836.62 manatdan başlayır.